**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*əlyazması hüququnda*

**VƏFA NAZİM QIZI AĞAYEVA**

# MÜASİR BEYNƏLXALQ HÜQUQDA DİPLOMATİK MÜDAFİƏ

**İXTİSAS: 5603.01 – "Beynəlxalq hüquq; insan hüquqları"**

**Hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V TO R E F E R A T I**

**BAKI – 2015**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Beynəlxalq xüsusi hüquq və Avropa hüququ" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| **Elmi rəhbər:** | **hüquq üzrə elmlər doktoru, professor Ə.İ.ƏLİYEV** |
| **Rəsmi opponentlər:** | **hüquq üzrə elmlər doktoru E.Ə.ƏLİYEV** |
| | **hüquq üzrə fəlsəfə doktoru İ.Z.EYVAZOV** |
| **Aparıcı təşkilat:** | **AMEA İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu** |

Dissertasiya işinin müdafiəsi "_04__" "__05__" 2015-ci il tarixdə saat "_____" Bakı Dövlət Universiteti nəzdindəki FD.02.013 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ-1148, Bakı şəhəri, akademik Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, I tədris korpusu, 901 saylı auditoriya.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" "_________" 2015-ci il tarixdə göndərilmişdir.

**FD.02.013 Dissertasiya şurasının elmi katibi, hüquq üzrə fəlsəfə doktoru:** **Ə.Q.MƏMMƏDOV**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Dissertasiya işinin aktuallığı.** Beynəlxalq hüquq nəzəriyyəsi və təcrübəsində diplomatik müdafiə xüsusi əhəmiyyət kəsb edən və daim aktual olan məsələlərdəndir. Mövzunun aktuallığı eyni zamanda insan hüquqları amili ilə də birbaşa bağlıdır. Belə ki, vətəndaşların və hüquqi şəxslərin hüquqları və qanuni maraqlarının müdafiəsi, həmin hüquq və maraqların bu dövlətin daxilində və ya onun hüdudları xaricində pozulmasından asılı olmayaraq, hazırda ən əhəmiyyətli, prioritet məsələlərdən biridir.

Beynəlxalq münasibətlərin inkişafının müasir mərhələsi əhalinin miqrasiyasının beynəlxalq ticarət, kapitalın ixracı, siyasi, iqtisadi, elmi, mədəni, idman, beynəlxalq turizm və başqa əlaqələrin müntəzəm şəkildə artması ilə səciyyələnir. Beynəlxalq hüquq əsasında əcnəbilərə verilən müdafiə kommersiya, ticarət və transmilli korporasiyaların xarici əməliyyatlarının genişlənməsi ilə də artmışdır[1]. İkinci Dünya Müharibəsindən sonra fiziki və ya hüquqi şəxslərə öz hüquqlarının müdafiəsi üçün yaradılmış beynəlxalq instansiyalara müraciət etməyə icazə verən insan hüquqlarının və xarici investisiyaların beynəlxalq müdafiəsi mexanizmləri müvəffəqiyyətlə inkişaf etməyə başlamışdır. Lakin, əcnəbinin yerləşdiyi və ya yaşadığı dövlət tərəfindən ona göstərilən hüquqi müdafiə vasitələri bəzən kifayət etmir və ya qeyri-effektiv olur. Həmin vaxt beynəlxalq instansiyalara müraciət də müsbət bir nəticə vermir və ya ümumiyyətlə müraciət etmək özü mürəkkəb bir prosedura çevrilir. Buna görə də, yerləşmə dövləti tərəfindən əcnəbi fiziki və hüquqi şəxslərin pozulmuş hüquqlarının müdafiəsinin ən geniş yayılmış vasitələrindən biri əvvəlki kimi diplomatik müdafiə olaraq qalır, hansını ki, beynəlxalq hüquq normalarına uyğun olaraq vətəndaşlıq (milli mənsubiyyət) dövləti xaricdəki diplomatik nümayəndəlikləri və konsul müəssisələri vasitəsilə həyata keçirir.

Bütövlükdə, diplomatik müdafiə ilə əlaqədar məsələlər əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının təminatında mühüm yer tutur[2]. Diplomatik müdafiə institutunu aktuallaşdıran bir çox səbəblər mövcuddur. İlk növbədə, beynəlxalq münasibətlər çərçivəsində diplomatik və konsul təsisatları vasitəsilə insan hüquqlarının müdafiəsi sahəsində münasibətlər artmışdır. Həmin münasibətlər müxtəlif xarakterli (adət, müqavilə və s.) beynəlxalq hüquq normaları ilə tənzimlənir.

[1] İnternational Human Rights in Context. Text and materials. Steiner J.H, Alston P., Goodman R. Oxford, Oxford University Press, p. 87.

[2] Əliyev Ə. İnsan Hüquqları. Dərslik. Bakı, Hüquq Ədəbiyyatı Nəşriyyatı, 2013, s. 475.



İkincisi, diplomatik nümayəndəliklər və konsul təsisatları vasitəsilə fiziki və hüquqi şəxslərə göstərilən hüquqi yardımın tədqiqi ilə bağlı müasir hüquq ədəbiyyatlarında geniş fikir müxtəliflikləri, araşdırmalar meydana çıxmışdır.

Üçüncüsü, yerləşmə dövləti tərəfindən əcnəbi fiziki və hüquqi şəxslərin hüquqlarının pozulması ilə bağlı beynəlxalq məhkəmə orqanlarına, arbitrajlara müraciətlərin sayı artmış və bu sahədə böyük bir təcrübə formalaşmışdır.

Dördüncüsü, BMT Beynəlxalq Hüquq Komissiyası 2006-cı il tarixdə 19 maddədən ibarət Diplomatik müdafiə haqqında Maddələr Layihəsi qəbul etmişdir. Bu sənəd müvafiq sferada meydana çıxan münasibətlərin tənzimlənməsində mühüm əhəmiyyət kəsb etməyə başlamışdır.

Beşincisi, diplomatik müdafiə institutunun ayrıca aspektləri (anlayışı, spesifik xüsusiyyətləri, hüquqi təbiəti, realizəsi və s.) dünyanın ayrı-ayrı regionlarındakı inteqrasiya, qloballaşma və əhalinin miqrasiyası proseslərinin inkişafı səbəbindən, həm vətəndaşların, həm hüquqi şəxslərin, həmçinin müxtəlif kateqoriyadan olan (qaçqın, apatrid, ikili vətəndaşlığı olan şəxslər) şəxslərin hüquqlarının müdafiəsi üçün daha geniş və kompleks tədqiqat obyektinə çevrilmişdir.

Diplomatik müdafiə institutu qədim tarixə malikdir. XVIII əsrdən daha da geniş yayılmağa başlayan bu institut dövlətlərin xaricdə yaşayan vətəndaşlarını və fəaliyyət göstərən hüquqi şəxslərinin müdafiəsi sahəsində əsas hüquqi müdafiə vasitəsinə çevrilmişdir. Diplomatik müdafiə hüququ müasir beynəlxalq hüquqda ümumtanınmış xarakterə malikdir, Diplomatik münasibətlər haqqında Vyana Konvensiyası (maddə 3), Konsul münasibətləri haqqında Vyana Konvensiyası (maddə 5), Mülki proses məsələləri ilə bağlı Haaqa Konvensiyası və digər beynəlxalq sənədlərdə öz təsbitini tapmışdır.

Diplomatik münasibətlər haqqında 1961-ci il Vyana Konvensiyasının 3-cü maddəsində qeyd edilir ki, beynəlxalq hüquqla yol verilən hüdudlarda yerləşmə dövlətində akkreditə edən dövlətin və onun vətəndaşlarının mənafelərini müdafiə etmək diplomatik nümayəndəliyin funksiyalarına daxildir. Konsul münasibətlər haqqında 1963-cü il Vyana Konvensiyasının 5-ci maddəsində konsulun funksiyaları arasında yerləşmə dövlətində göndərən dövlətin və onun vətəndaşlarının (fiziki və hüquqi şəxslərinin) maraqlarının beynəlxalq hüquqla müəyyən edilmiş hüdudlarında müdafiəsi, göndərən dövlətin vətəndaşlarına (fiziki və hüquqi şəxslərinə) kömək və yardım göstərilməsi qeyd edilir.

Diplomatik müdafiə ilə bağlı müddəalar 1973-cü il dekabrın 14-də BMT Baş Məclisi tərəfindən qəbul edilmiş Beynəlxalq müdafiədən istifadə edən şəxslərə, o cümlədən diplomatik agentlərə yönəlmiş cinayətlərin qarşısının alınması və cəzalandırılması haqqında Konvensiyanın müvafiq maddələrində

də təsbit edilmişdir[3]. Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında Beynəlxalq Konvensiya əməkçi-miqrantların vətənindən kənarda olduqları üçün daha çox köməyə ehtiyacı olması vəziyyətləri ilə əlaqədar BMT çərçivəsində 18 dekabr 1990-cı il tarixdə qəbul edilmişdir[4]. Artıq qeyd etdiyimiz kimi, diplomatik müdafiə yalnız vətəndaşlara deyil, ayrı-ayrı kateqoriya insanlara – qaçqın, apatrid, ikili vətəndaşlara da tətbiq olunur. Həmin şəxslərin hüquqlarının müdafiəsi sferasında qəbul edilən beynəlxalq sənədlərdə (1930-cu il Vətəndaşlıq qanunlarının kolliziyası ilə bağlı bəzi məsələləri tənzimləyən Haaqa Konvensiyası, Apatridlərin statusu haqqında 28 sentyabr 1954-cü il Konvensiyası, Qaçqınların statusu haqqında 1951-ci il Konvensiyası)[5] də diplomatik müdafiə ilə bağlı normalar təsbit edilmişdir.

Fiziki şəxslərlə yanaşı, hüquqi şəxslərin müdafiəsi də diplomatik müdafiə institutunun fəaliyyət sferasına daxildir. Ümumiyyətlə, ölkə xaricində fəaliyyət göstərən hüquqi şəxslərin maraqlarının müdafiəsi ticarət və iqtisadi inteqrasiya proseslərinin sürətli inkişaf etdiyi müasir beynəlxalq münasibətlərdə xüsusi aktuallıq kəsb edir. BMT Baş Məclisinin 2007-ci il 61-ci sessiyasında Diplomatik müdafiə haqqında Konvensiyanın qəbul edilməsi üçün dövlətlərə müvafiq məsələ ilə bağlı kommentariya və təkliflərini təqdim etmək tövsiyə olunmuşdur. Bu baxımdan məsələnin tədqiqi xüsusi aktuallıq kəsb edir. Digər tərəfdən, son vaxtlar bəzi elmi tədqiqat əsərlərində belə bir fikrə də rast gəlinir ki, diplomatik müdafiə institutu öz aktuallığını itirib, həmin müəlliflər 1948-ci il Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin həm vətəndaşlara, həm də əcnəbilərə münasibətdə dövlətlərin bərabər münasibəti, həmçinin 1966-cı il Beynəlxalq paktlarının hüquq bərabərliyi ilə bağlı müvafiq normalarına istinad edirlər[6].

Bütün bunlara baxmayaraq, diplomatik müdafiəyə dövlətlərin praktikasında daha tez-tez rast gəlinir ki, bu da həmin institutun praktiki əhəmiyyətini və aktuallığını artırır. Müasir beyəlxalq münasibətlərdə diplomatik müdafiə ilə bağlı məsələlər Azərbaycan Respublikası (AR) üçün də xüsusi aktuallıq kəsb edir. Respublikamızın sürətli iqtisadi inkişafı, ticarət və turizmin genişlənməsi, beynəlxalq biznes layihələrinə qoşulması həm vətəndaşların müxtəlif məqsədlərlə ölkə xaricinə getməsinə, xaricdə

[3] Fritz M. Pledging Multiple Allegiances //Los Angeles Times, Monday, April 6, 1998, p. 1.
[4] Labour Migration. International Migration Policies. United Nations Department of Economic and Social Affairs. Population div. New York. 1998.
[5] Иванов Д.В. Беженцы в современном международном праве. М., 2006, с. 88.
[6] Содиков Ш.Д. «Институт дипломатической защиты в международном праве». Вестник московского университета МВД России. Москва, 2010 г. №1.



yaşayanların hüquq və azadlıqlarının müdafiəsinə, həmçinin ölkə xaricində fəaliyyət göstərən yerli müəssisə və təşkilatların hüquq və maraqlarının qorunmasına zərurət yaratmışdır. Dövlətimiz insan hüquqlarının müdafiəsi sahəsində bir çox konvensiya və sazişlərə qoşulmuşdur. Ölkə ərazisində yaşayan əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, ikili vətəndaşlığı olan şəxslər, qaçqınların hüquqlarının müdafiəsi əsasən milli qanunvericiliyin formalaşması və inkişafında mühüm rol oynayan həmin beynəlxalq-hüquqi aktlarla qorunur. Beləliklə, *pacta sunt servanda* prinsipinə əməl edən bir dövlət kimi Respublikamıza münasibətdə diplomatik müdafiə hüququnun həyata keçirilməsi ilə bağlı problemlərin hərtərəfli araşdırılması aktualdır.

İnsan hüquqlarının müdafiəsi, bu sahədə beynəlxalq əməkdaşlıq, beynəlxalq və milli hüququn, insan hüquqları üzrə beynəlxalq standartların və dövlətlərin daxili qanunvericiliyinin qarşılıqlı əlaqəsi aktual problemlərdəndir. Bu sahədə beynəlxalq hüquq normaları mühüm yer tutur ki, onlar da bütün dünya dövlətlərinin konstitusiyaları, qanunları, hüquqi aktları üzərində güclü təsirə malikdir[7]. Diplomatik müdafiə göstərilməsi dövlətlərin suveren hüququ olsa da, beynəlxalq-hüquqi normalarla tənzimlənir, buna görə də, tədqiq edilən sferada beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsi probleminin araşdırılması xüsusi aktuallıq kəsb edir. Respublikamızda diplomatik müdafiə, əcnəbilərin hüquqlarının qorunması sferasında müəyyən qanunvericilik bazası mövcuddur. Milli qanunvericiliyimizdə əcnəbilərə ölkə vətəndaşları ilə bərabər hüquqlar verilir. Bu müddəanın əsasını ilk növbədə, AR Konstitusiyasının 69-cu maddəsi təşkil edir. Həmin maddəyə müvafiq olaraq, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər AR-də olarkən, qanunla və ya AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, AR vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər.

Konstitusiyanın 12-ci maddəsində insan və vətəndaş hüquq və azadlıqlarının AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilməsi xüsusi olaraq qeyd edilmişdir. Konstitusiyanın 53-cü maddəsinin III bəndində əsasən AR, onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan AR vətəndaşlarının hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir. Göründüyü kimi, bu maddədə diplomatik müdafiə hüququnun konstitusion əsasları müəyyən olunmuşdur.

AR Miqrasiya Məcəlləsinə əsasən əcnəbilər və vətəndaşlığı olmayan şəxslər AR-də olarkən, qanunda və ya AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa hal nəzərdə tutulmayıbsa, AR vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilərlər. Xarici dövlət onun ərazisində AR

[7] Murpy D.Sean. Principles of International Law. Concise Hornbook Series. Thomson West. 2006, p. 300.

vətəndaşlarının hüquq və azadlıqlarının həyata keçirilməsinə məhdudiyyət qoyduqda, AR-in qanunu ilə həmin dövlətin vətəndaşları üçün AR-in ərazisində eyni məhdudiyyətlər müəyyən edilə bilər.

Xarici dövlətlərdə AR vətəndaşlarının və hüquqi şəxslərinin hüquq və mənafeyini müdafiə edən, o cümlədən AR-in xarici dövlətlərdə konsul fəaliyyətini tənzimləyən AR-in Konsul Nizamnaməsi 1994-cü il martın 1-də qüvvəyə minmişdir. Bundan başqa, Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında 27 dekabr 2002-ci il tarixli AR Qanununu da xüsusi qeyd etmək lazımdır. Bu Qanun xaricdə yaşayan azərbaycanlılarla bağlı AR-in dövlət siyasətinin məqsəd və prinsiplərini, bu siyasətin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən edir. Qanunda qeyd olunur ki, xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti AR-in daxili və xarici siyasətinin ayrılmaz hissəsidir (maddə 3.20). Bu siyasəti həyata keçirərkən AR beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə, o cümlədən, insan hüquq və azadlıqlarına hörmət və digər dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanır (maddə 3.1). AR onun vətəndaşı olan və onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan azərbaycanlıların hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir (maddə 4.1). Diplomatik müdafiə sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi ölkəmizdə mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Hətta, AR Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 saylı Fərmanı ilə təsdiq edilmiş Azərbaycan 2020: Gələcəyə Baxış İnkişaf Konsepsiyasında qeyd edilir ki, başqa ölkələrdən gələn qaçqınların sosial təminatlardan yararlanmasını tənzimləyən işlək mexanizm yaradılması, xaricdən işçi qüvvəsinin ölkəyə qanunsuz axınının qarşısının alınması, xarici ölkələrdə çalışan vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı müvafiq işlər görüləcəkdir.

**Dissertasiya işinin obyektini** xaricdə yaşayan fiziki şəxslərə və fəaliyyət göstərən hüquqi şəxslərə diplomatik müdafiənin göstərilməsi ilə bağlı ictimai münasibətlər, diplomatik müdafiə ilə bağlı məsələləri tənzimləyən beynəlxalq və milli hüquqi aktlar, həmçinin elmi-hüquqi doktrina, diplomatik müdafiənin tətbiqi praktikası təşkil edir.

**Dissertasiya işinin predmetini** isə diplomatik müdafiə hüququnun nəzəri cəhətdən əsaslandırılması, diplomatik müdafiə hüququnun digər hüquq müdafiə vasitələri ilə qarşılıqlı əlaqəsi və kompleks xüsusiyyətlərə malik olması səviyyəsinin öyrənilməsi, diplomatik müdafiə hüququnun universal, regional, ikitərəfli və dövlətdaxili normativ-hüquqi aktlarda öz təsbitini tapması, həmçinin AR-in qanunvericilik sisteminin təkmilləşdirilməsi baxımından xüsusilə əhəmiyyət kəsb edən beynəlxalq-hüquqi normaların



dövlətdaxili qanunvericiliyə təsir imkanlarının müəyyən edilməsi üzrə problemin təhlili təşkil edir.

**Dissertasiya işinin məqsədi** diplomatik müdafiə hüququnun beynəlxalq və milli hüquqi problemlərinin, məhkəmə praktikasının və bununla bağlı mühüm aspektlərin geniş və kompleks şəkildə araşdırılmasıdır. Diplomatik müdafiə hüququnun beynəlxalq və milli hüquqi problemləri ilə bağlı məsələlərin elmi şəkildə araşdırılması, paralel olaraq, bu sahədə universal, regional və ikitərəfli beynəlxalq-hüquqi müqavilələrin müqayisəli şəkildə nəzərdən keçirilməsinə, xarici ölkələrin milli qanunvericiliklərinin və elmi ədəbiyyatlardakı mövcud fikir müxtəlifliklərinin ətraflı təhlil edilməsinə, diplomatik müdafiə hüququnun beynəlxalq və milli hüquqi problemləri ilə bağlı mühüm elmi bazanın yaradılmasına, müvafiq sferada müasir və təkmil qanunvericilik sisteminin yaradılmasına şərait yaradır. Bunlar AR milli qanunvericiliyinin beynəlxalq hüquq normalarına uyğun yekdil bir formada təkmilləşdirilməsi üçün də mühüm əhəmiyyət kəsb edir.

**Qeyd edilən məqsədlərə nail olmaq üçün dissertasiya işində aşağıdakı vəzifələr müəyyən edilmişdir:**

- Diplomatik müdafiə hüququ institutunun formalaşması tarixinə diqqət yetirməklə, problemin tarixi aspektlərinin üzə çıxarılması;
- Diplomatik müdafiənin anlayışı, mahiyyəti, hüquqi təbiətinin araşdırılması və müvafiq məsələ ilə bağlı elmi ədəbiyyatlardakı fikir müxtəlifliklərinin müqayisəli təhlili;
- Diplomatik müdafiə hüququnun beynəlxalq-hüquq normalarında təsbit olunması məsələlərinin üzə çıxarılması;
- Diplomatik müdafiə ilə bağlı normaları təsbit edən beynəlxalq və milli-hüquqi aktların müqayisəli şəkildə tədqiq olunması;
- Diplomatik müdafiə sahəsində məhkəmə və arbitraj praktikasının, xüsusilə də BMT Beynəlxalq Məhkəməsi praktikasının tədqiq edilməsi;
- Normativ-hüquqi aktları tədqiq etməklə diplomatik müdafiə hüququnun beynəlxalq hüquq sistemində yerinin müəyyən edilməsi;
- Dilomatik müdafiənin tətbiqi şərtlərinin araşdırılması, bu sferada nəzəri və praktiki problemlərin həlli yollarının müəyyənləşdirilməsi;
- Diplomatik müdafiənin tətbiqinin prosessual mərhələləri və vasitələrinin tədqiqi;
- Əcnəbilərin hüquqi statusu və diplomatik müdafiənin göstərilməsi məsələlərinin təhlili;
- Vətəndaşlığı olmayan şəxslərə, ikili və çoxqat vətəndaşlığı olan şəxslərə diplomatik müdafiənin göstərilməsi probleminin araşdırılması;

- Qaçqınlara münasibətdə diplomatik müdafiə göstərilməsi probleminin ətraflı nəzərdən keçirilməsi;

- Hüquqi şəxslərə diplomatik müdafiənin göstərilməsi xüsusiyyətlərinin təhlili;

- AR-də diplomatik müdafiə institutunun formalaşması və müasir vəziyyəti, diplomatik müdafiə sferasında beynəlxalq hüquq normalarının milli qanunvericiliyin formalaşmasına təsiri məsələlərinin araşdırılması;

- Diplomatik müdafiə sahəsində AR-in milli qanunvericiliyinin təkmilləşdirilməsi və inkişaf tendensiyası məsələlərinin müəyyən edilməsi.

**Dissertasiya işinin elmi yeniliyi** onunla əlaqədardır ki, dissertasiya işi diplomatik müdafiə hüququnu xaricdəki fiziki və hüquqi şəxslərin hüquq və maraqlarının müdafiəsinin xüsusi bir forması kimi nəzərdən keçirən kompleks tədqiqatı özündə əks etdirir. Dissertasiya işində diplomatik müdafiə hüququ sferasındakı normaların beynəlxalq hüquq sistemində tutduğu yerə xüsusi diqqət ayrılmış və bu kontekstdə diplomatik müdafiə hüququnun həm beynəlxalq humanitar hüquq, həm insan hüquqlarının beynəlxalq müdafiəsi, həm dövlətlərin beynəlxalq məsuliyyəti, həm də diplomatiya hüququ ilə qarşılıqlı şəkildə kompleks xarakterə malik olması müəyyən edilmişdir.

Qeyd edilənləri nəzərə alaraq, hazırkı dissertasiya işi problemə geniş və müqayisəli nöqteyi-nəzərdən yanaşır, dissertasiya işində Respublikamızın milli qanunvericiliyinin beynəlxalq hüquq normaları ilə müqayisəli şəkildə təhlili aparılır, dünya dövlətlərinin milli praktikası öyrənilir, dövlətimizin diplomatik müdafiə hüququ ilə bağlı milli qanunvericiliyinin formalaşdırılması və təkmilləşdirilməsi ilə əlaqədar kifayət qədər mühüm təkliflər irəli sürülür. Hazırkı tədqiqat qeyd edilən istiqamətlərdə geniş beynəlxalq müqavilə praktikasının, müxtəlif dövlətlərin qanunvericiliklərinin, məhkəmə və arbitraj təcrübəsi, o cümlədən hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyinin müqayisəli analizi əsasında aparılmışdır. Bundan başqa, insan hüquqlarının müdafiəsi kontekstində diplomatik müdafiə hüququnun inkişafı probleminin həlli ilə əlaqədar beynəlxalq və milli hüquq normalarının qarşılıqlı əlaqəsi münasibətlərinin təhlili də kifayət qədər əhəmiyyətlidir.

**Dissertasiya işində aşağıdakı yeni elmi müddəalar irəli sürülür:**

1. Diplomatik müdafiəyə dar və geniş mənada anlayış verilməlidir – burada əsas meyar onu tətbiq edən dövlətin hansı məqsədlərə nail olmasıdır. Dar mənada diplomatik müdafiə bir dövlətin digər dövləti, ikinci dövlətin beynəlxalq hüquqa zidd hərəkətləri nəticəsində onun vətəndaşlarının və ya hüquqi şəxslərinə vurulan ziyana görə diplomatik və digər dinc vasitələrlə beynəlxalq məsuliyyətə cəlb etməsi üzrə beynəlxalq hüquqi prosesdir (mexanizm və ya prosedur). Geniş anlamda diplomatik müdafiə dövlətlərin



beynəlxalq hüququn subyekti qismində öz suveren hüququ kimi realizə etdiyi və əsas məqsədi diplomatik və ya digər dinc vasitələrlə digər dövlətin ərazisində yaşayan və ya fəaliyyət göstərən hüquqi şəxslərinin yerləşmə dövlətinin beynəlxalq hüquqa zidd əməli ilə pozulmuş hüquqlarının bərpasına yönəlmiş beynəlxalq (dövlətlərarası) xarakterli proses və ya mexanizmdir.

2. Diplomatik müdafiə ilə bağlı məsələlər dövlətlərarası xarakter daşıyır, lakin bu məsələ diplomatik müdafiəyə xaricdə hüquqları pozulan şəxslərin müdafiəsinin vacib mexanizmi olmağa mane olmur. Onun realizəsi hüquqi fiksiyanın mövcudluğu ilə də mümkündür. Həmin fiksiyaya görə, fiziki və ya hüquqi şəxsə vurulan ziyan həmin şəxslərin mənsub olduqları dövlətə vurulan ziyan kimi qiymətləndirilir. Bunun əhəmiyyəti ondadır ki, beynəlxalq arenada dövlət, mahiyyət etibarilə ümumilikdə vətəndaşların, xüsusi halda isə müvafiq şəxsin nümayəndəsi kimi çıxış edir. Həmin şəxslərin hüquqlarının müdafiəsi vəzifəsi məhz dövlətin üzərinə düşür.

3. Fiziki və hüquqi şəxslərə münasibətdə dövlətin hüququ, yoxsa vəzifəsi olması nöqteyi-nəzərindən diplomatik müdafiənin hüquqi təbiəti ikili xarakter daşıyır: a) beynəlxalq hüquqi baxımdan – həm öz vətəndaşlarına, həm də digər şəxslərə (qaçqın, apatrid) münasibətdə diplomatik müdafiənin həyata keçirilməsi dövlətin diskresion hüququdur; dövlətdaxili hüquq baxımından – dövlət öz vətəndaşlarını, o cümlədən ikili vətəndaşları onunla siyasi-hüquqi bağlılıq nöqteyi-nəzərindən müdafiə etməlidir, yəni bu onun vəzifəsidir. Qaçqın və ya apatridlərə gəldikdə isə onların müvafiq dövlətlə siyasi-hüquqi bağlılığı olmadığı üçün, dövlət həmin kateqoriya şəxslərin müdafiəsi ilə bağlı milli qanunvericiliyində dəyişiklik edə və ya öz üzərinə beynəlxalq öhdəlik götürə bilər.

4. Diplomatik müdafiədən fərqli olaraq, konsul köməyi müdafiənin spesifik bir formasıdır. Bu kömək beynəlxalq hüquq normalarına uyğun olaraq konsul təsisatları vasitəsilə dinc vasitələrlə göstərilir. Konsul köməyi göstərilən zaman vətəndaşların və dövlətə mənsub olan hüquqi şəxslərin hüquq və maraqları müdafiə olunur – məhz onlar konsul köməyinin təşəbbüskarlarıdır, dövlətlər isə öz konsulluqları və diplomatik nümayəndəlikləri vasitəsilə müvafiq köməyi göstərirlər. Həm beynəlxalq, həm də dövlətdaxili səviyyədə konsul köməyinin göstərilməsi dövlətin vəzifəsidir.

5. Diplomatik müdafiə institutu beynəlxalq hüququn sahələrarası və ya kompleks xarakterli müstəqil institutudur. Onun tənzimetmə predmetinə iki qrup münasibətlər daxildir – dövlətlərarası münasibətlər (burada əsas subyektlər iddiaçı və cavabdeh dövlətdir) və dövlətdaxili münasibətlərin bir hissəsi. Diplomatik müdafiə və konsul köməyi ilə bağlı məsələlərin tənzimlənməsi beynəlxalq hüquq normaları ilə yanaşı, dövlətdaxili hüquq

normaları ilə də tənzimlənir. Xaricdəki fiziki və hüquqi şəxslərin pozulmuş hüquqlarının bərpası zamanı həmin normalar kompleks şəkildə tətbiq olunur. Dövlətdaxili normalar diplomatik müdafiə və konsul köməyi ilə bağlı məsələləri konkretləşdirir. Belə konkretləşdirmə dövlətdaxili normayaradıcılıq, müdafiəni həyata keçirən orqanların səlahiyyətlərinin müəyyən edilməsi vasitəsilə həyata keçirilir.

6. Diplomatik müdafiənin həyata keçirilməsinin növbəti əsas şərtlərini müəyyənləşdirmək olar: xarici dövlətin ərazisində olan şəxsə vurulan ziyanın səbəbi olan beynəlxalq hüquqa zidd əməlin mövcudluğu; yerləşmə dövlətində hüquqi müdafiənin bütün daxili vasitələrinin tükənməsi; iddiaçı-dövlətlə zərərçəkən şəxs arasında siyasi-hüquqi əlaqənin mövcudluğu. Qeyd edilən şərtlərə əməl olunmaması diplomatik müdafinin etibarsızlığına səbəb olur.

7. Diplomatik müdafiə dinc vasitələrlə həyata keçirilir və hər bir halda güc tətbiqini inkar edir. Diplomatik müdafiənin göstərilməsi tədbirlərinin konkret siyahısı olmasa da, təcrübədə daha çox danışıqların aparılması, xoşməramlı xidmətlər, vasitəçilik, məhkəmə və ya arbitraj araşdırması, retorsiya, repressaliyə rast gəlinir. Diplomatik müdafiənin spesifik xüsusiyyətlərindən biri odur ki, bu növ müdafiə şəxsin vətəndaşı olmadığı dövlət (onun diplomatik və ya konsul təsisatı vasitəsilə) tərəfindən də göstərilə bilər. Belə hallara təcrübədə çox rast gəlinir, belə ki, şəxs yaşadığı və ya müvəqqəti olduğu xarici dövlətdə vətəndaşı olduğu dövlətin diplomatik və ya konsul təsisatı olmur, bu zaman həmin şəxsin müdafiəsini üçüncü dövlət öz üzərinə götürür.

8. Diplomatik müdafiə beynəlxalq hüququn institutu olsa da, müdafiənin bu formasının realizəsində dövlətlərin şəxsi təşəbbüsü əsasdır, yəni diplomatik müdafiənin həyata keçirilməsi vaxtı dövlət öz mülahizəsinə əsasən hərəkət edə və müdafiənin o ölçülərini müəyyən edə bilər ki, hansılar ki, zərərin ödənilməsi üçün sürətli və effektiv hesab edilir. Beynəlxalq hüquqa uyğun olaraq diplomatik müdafiə qanuni və dinc vasitələrlə həyata keçirilməlidir. Diplomatik müdafiənin həyata keçirilməsi vaxtı dövlətlər həm diplomatik tədbirlərə, həm də məhkəmə baxışına müraciət edə bilərlər.

9. Dövlətin ərazisində qanuni əsaslarla daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə diplomatik müdafiənin göstərilməsi beynəlxalq hüquqa tam müvafiqdir. Diplomatik müdafiə sahəsində baş vermiş müsbət dəyişikliklər vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının müdafiəsinə, o cümlədən həmin kateqoriyadan olan şəxslərə diplomatik müdafiənin təqdim edilməsinə şərait yaratmışdır. Bütün bunlar ümumi şəkildə insan hüquqlarının müdafiəsi sferasında beynəlxalq normativ bazanın inkişafı ilə uyğunlaşdırılır.



10. İkili vətəndaşlığı olan şəxslərə vətəndaşı olduğu dövlətlərdən biri tərəfindən diplomatik müdafiə o halda göstərilə bilər ki, şəxs zərər vurulan və iddia qaldırılan vaxtlarda diplomatik müdafiəni göstərən dövlətlə effektiv vətəndaşlıq münasibətində olsun. İkili vətəndaşlığı olan şəxslərə diplomatik müdafiənin göstərilməsi məsələsində effektiv vətəndaşlıq prinsipinə müasir beynəlxalq münasibətlərdə üstünlük verilir, həmçinin hüquq ədəbiyyatlarında müəlliflərin də əksəriyyəti müvafiq məsələdə bu prinsipin tətbiqinin tərafdarıdır. Bu prinsip insan hüquqlarının müdafiəsi baxımından da səmərəli vasitə hesab olunur. Belə ki, məhz bu prinsipin tətbiqi zamanı çoxsaylı fiziki şəxslərin hüquq və azadlıqlarının müdafiəsini təmin etmək mümkündür.

11. Hüquqi şəxslərin diplomatik müdafiə hüququnun həyata keçirilməsi onların beynəlxalq hüquq nöqteyi nəzərindən müəyyən məqsədlər üçün dövlət mənsubiyyətinə malik olmasının tanınmasına əsaslanır. Hüquqi şəxslərin dövlət mənsubiyyəti dedikdə, onun dövlətlə real, əhəmiyyətli əlaqəsinin mövcudluğu nəzərdə tutulur. Müasir beynəlxalq hüquqda və doktrinada səhmdarların hüquqlarına birbaşa ziyan vurulması zamanı onlara vətəndaşı olduqları dövlət tərəfindən diplomatik müdafiə göstərilməsi artıq qəbul olunmuşdur.

12. AR-də diplomatik müdafiə institutu qədim və zəngin tarixə malik deyil. Müasir anlamda diplomatik müdafiə institutun formalaşması və inkişafına milli diasporun yaranması və inkişafı əhəmiyyətli təsir göstərmişdir. AR insan hüquqları və diplomatik müdafiə sferasında mövcud olan bir sıra beynəlxalq müqavilələrə qoşulmaqla həmin müqavilələrin normalarını öz qanunvericiliyinə daxil etmişdir. Həmin beynəlxalq konvensiyaların müddəaları nəzərə alınaraq Respublikamızda diplomatik müdafiə məsələlərinin tənzimlənməsi üzrə bir sıra qanunvericilik aktları qəbul edilmişdir. Bu qanunlarda əsasən xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətinin məqsəd, prinsip və əsasları müəyyən edilmişdir.

**Dissertasiya işinin nəzəri əsasları.** Dissertasiya işində beynəlxalq hüquq sferasında tədqiqat aparan bir sıra yerli hüquqşünas alimlərin – Ə.İ.Əliyev, R.F.Məmmədov, L.H.Hüseynov, İ.M.Rəhimov, O.F.Əfəndiyev, E.Ə.Əliyev, Ə.İ.Sadıqov, A.A.Məhərrəmov, Ə.Q.Məmmədov; əcnəbi alimlərdən, ilk növbədə, rus ailmlərindən M.A.Amirov, A.P.Barışev, İ.P.Blişenko, M.S.Volkov, D.S.Qvozdeçkiy, V.V.Epifanov, Q.V.İqnatenko, A.Y.Kapustin, A.A.Kovalyova, D.B.Levin, D.L.Lısenko, K.K.Sandrovskiy, Ş.D.Sodikov, D.İ.Feldman, İ.İ.Lukaşuk, S.V.Çerniçenko, E.A.Şibayeva; Qərbi Avropa və Amerikan alimlərindən E.M.Borçard, Y.B.Braunli, H.V.Briqqs, E.Vayler, F.S.Dann, D.L.Kempbell, L.Dübua, A.Friman, R.Lilliç, A.M.Kunzli və başqalarının əsərlərindən istifadə edilmişdir.

**Dissertasiya işinin metodoloji əsasını** dialektikanın prinsip və kateqoriyaları təşkil edir. Ümumi elmi metodlarla yanaşı, digər metodlar da - tarixi, müqayisəli, məntiqi, sistemli-struktur və s. dissertasiyada diqqətlə təhlil edilmişdir.

**Dissertasiya işinin normativ bazasını** diplomatik müdafiə ilə bağlı normaları özündə əks etdirən universal, regional və ikitərəfli beynəlxalq müqavilələr, adət normaları, məhkəmə praktikası, eləcə də dünya dövlətlərinin və AR-in diplomatik müdafiə hüququ sahəsində milli qanunvericiliyi təşkil edir.

**Dissertasiya işinin praktiki əhəmiyyəti** diplomatik müdafiə hüququnun beynəlxalq hüquq normaları əsasında tənzimlənməsi sferasında biliklərin sistemləşdirilməsi, genişləndirilməsi və dərinləşdirilməsi ilə bağlıdır. Dissertasiyanın əksər istiqamətləri üzrə irəli sürülmüş nəticə və təkliflər insan hüquqları prizmasından diplomatik müdafiə hüququnun təmini problemi, o cümlədən diplomatik müdafiə hüququ ilə əlaqədar beynəlxalq və dövlətdaxili normativ-hüquqi aktların işlənib hazırlanması və qəbul edilmiş normaların təkmilləşdirilməsi zamanı hüquqyaradıcılıq fəaliyyətində; diplomatik müdafiə hüququnun tənzimlənməsi və təmin edilməsi ilə əlaqədar konkret istiqamətlərin işlənilməsi üçün gələcək elmi tədqiqatlarda; AR ali məktəblərində beynəlxalq hüquq, insan hüquqları, diplomatiya hüququ, konsul hüququ üzrə dərslik, dərs vəsaitləri, o cümlədən tədris-metodik proqramların işlənib hazırlanmasında istifadə edilə bilər.

**Tədqiqatın nəticələrinin aprobasiyası.** Dissertasiya işinin mühüm aspektləri ilə əlaqədar bir sıra məsələlər AR və xarici ölkələrdə nəşr olunan jurnallarda və beynəlxalq konfrans materiallarında çap olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi struktur baxımından giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Dissertasiya işinin giriş hissəsində** mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri, onun metodoloji və nəzəri əsasları müəyyənləşdirilir, işin elmi yeniliyi, müdafiəyə təqdim edilən yeni elmi müddəaları və praktik əhəmiyyəti izah edilir, tədqiqatın nəticələrinin aprobasiyası və dissertasiyanın strukturu haqqında məlumat verilir.

**I Fəsil "Diplomatik müdafiə institutunun formalaşması, mahiyyəti, normativ-hüquqi əsasları və tətbiqi problemi" adlanmaqla dörd paraqrafı özündə birləşdirir.**



**Birinci paraqrafda** diplomatik müdafiə institutunun tarixi və nəzəri aspektləri ilə bağlı məsələlər tədqiq edilir.

Bu zaman dissertasiyada müxtəlif dövrlərdə diplomatik müdafiə institutunun formalaşması və bir sıra spesifik xüsusiyyətləri təhlil edilir. Qədim yunanlar əcnəbiləri düşmənlərlə bərabərləşdirirdilər. Polislərdə əcnəbilər hüquqsuz idi və istənilən vaxt sürgün edilə bilərdilər. Ancaq bu istənilən inkişafa, xüsusilə də ticarət münasibətlərinin inkişafına mane olurdu. Polislər arasında ticarətin inkişafı ilə əlaqədar olaraq əcnəbilərin hüquqi vəziyyətinin müxtəlif tərəflərini tənzimləyən müqavilələr bağlanmağa başladı. Həmin müqavilələrdə nikaha daxil olmaq, əmlak əldə etmək hüququ, mülkiyyətin müdafiəsi, yaşayış yerlərinin salınması, əcnəbilərin şəxsi azadlıqları və s. fundamental hüquq və azadlıqlar müəyyən edilirdi.

Qədim Romada Yunanıstanda mövcud olmuş prokseniya institutuna bənzər əcnəbilərə himayə institutu mövcud idi: xüsusi vəzifəli şəxs (pereqrinus pretoru) əcnəbilərin işləri ilə məşğul olurdu, onlara kömək göstərirdi və onların mübahisələrini həll edirdi. Pereqrinlər arasında yer alan əcnəbilər heç bir hüquqlara malik hesab olunmurdular. Əgər onların mənsub olduğu dövlət Roma ilə müttəfiq idisə, bu halda onların hüquqları müttəfiq sazişi ilə müəyyən olunurdu. Pereqrinlər kateqoriyası e.ə. 212-ci ilə qədər mövcud oldu. Daha sonra o, öz əhəmiyyətini itirdi, belə ki, bundan sonra bütün vətəndaşlar hüquqlara malik oldu.

XV-XVI əsrlərdən başlayan Renessans dövründə dövlətlərarası münasibətlərin, xüsusilə də ticarət, mədəniyyət və incəsənətin inkişafı diplomatik müdafiə institutuna da təsirsiz ötüşməmişdi. İtaliyan şəhər dövlətləri arasında ticarət əlaqələrinin intensivləşməsi iqtisadi-siyasi maraqları təmsil edən nümayəndəliklərin təsis edilməsinə, onların müdafiəsinə zərurət yaratdı[8].

Diplomatik müdafiə institutunun tam formalaşması XVIII əsrin sonu – XIX əsrin əvvəllərindən baş vermişdir. Bu dövrdə isə ümumi hüquqda dövlət və fiziki şəxslər (vətəndaşlar və əcnəbilərə münasibətdə də), həmçinin dövlətlər arasında hüquqi münasibətlər dəqiq müəyyən olunmuşdur. Bu cür hüquq münasibətləri onun yurisdiksiyasında olan fərdlər üzərində mərkəzi hakimiyyət nəzarətinin güclənməsi, dövlətlərin ərazi müstəqilliyi və suverenliyinin meydana gəlməsi ilə müşayiət olunurdu[9].

---

[8] Frigo D. Politics and Diplomacy in Early Modern Italy. Trans. Belton. Cambridge University Press, Cambridge, 2000, p. 8.

[9] Borchard E.M. Diplomatic Protection of Citizens Abroad or the Law of International Claims. New York, The Banks Law Publishing Co., 1916, p. 3

Dissertasiyada aparılan təhlillərlə belə bir nəticəyə gəlinir ki, XX əsrdə bu istiqamətdə bir sıra normaların (1961-ci il tarixli Diplomatik münasibətlər haqqında Vyana Konvensiyası və 1963-cü il tarixli Konsul münasibətləri haqqında Vyana Konvensiyası) qəbul edilməsinə baxmayaraq bilavasitə diplomatik müdafiə ilə əlaqədar xüsusi beynəlxalq sənəd qəbul edilməmişdir. Nəhayət, 2006-cı ildə keçirilmiş 58-ci sessiyasında Beynəlxalq hüquq Komissiyası Diplomatik müdafiə haqqında Maddələr Layihələsinin ikinci oxunuşunu keçirdi və müzakirələri başa çatdırdı. Sessiyanın yekununda isə Beynəlxalq hüquq Komissiyası BMT Baş Məclisinə Diplomatik müdafiə ilə bağlı ayrıca konvensiyanın qəbul edilməsini tövsiyə etdi. Baş Məclis isə öz növbəsində, Komissiyanın qəbul etdiyi Maddələr Layihəsi əsasında üzv-dövlətlərin öz təklif və iradlarını təqdim etməyi təklif etmişdi. Hələlik bu sahədə ayrıca konvensiya qəbul edilməsə də, Komissiyanın hazırladığı və 2006-cı il 58-ci sessiyasında qəbul edilən Maddələr Layihəsi və ona kommentariyalar əsas götürülür.

**İkinci paraqrafda** diplomatik müdafiənin anlayışı və beynəlxalq-hüquq normalarında təsbit olunması tədqiq edilir. Qeyd edilir ki, diplomatik müdafiə institutu orta əsrlərdən formalaşsa da, dövlətlərarası münasibətlərin möhkəmlənməsi ilə daha çox XX əsrdən inkişaf etməyə başlamışdır. BMT Beynəlxalq Məhkəməsinin sələfi olan Beynəlxalq Ədalət Məhkəməsi Daimi Palatasının 1924-cü il tarixli Mavrommatis işi üzrə Qərarında dövlətin öz vətəndaşlarını müdafiə etməsini beynəlxalq hüququn əsas prinsipi kimi müəyyən etmişdir. Dövlətlərin diplomatik müdafiə hüququ BMT Beynəlxalq Məhkəməsi tərəfindən də təsdiq edilmişdir (1955-ci il Nottebom işi üzrə qərar). Diplomatik müdafiə institutu 1961-ci il Diplomatik münasibətlər haqqında Vyana Konvensiyası (maddə 3) və 1963-cü il Konsul münasibətləri haqqında Vyana Konvensiyası (maddə 5) kimi universal beynəlxalq konvensiyalarda da təsbit olunmuşdur.

Diplomatik müdafiə institutunun anlayışı ilə bağlı məsələləri tədqiq edərkən retorsiya anlayışına da toxunulmalıdır. Retorsiya (latın dilində *retortus*-burmaq, çevirmək) bir dövlətin qeyri-dostcasına hərəkətlərinə cavab olaraq digər dövlətin məcburi hüquqauyğun davranışıdır. Beynəlxalq münasibətlər tarixi göstərir ki, dövlətin və onun vətəndaşlarının ölkədən kənarda hüquq və maraqlarının müdafiəsi müxtəlif forma və üsullarda həyata keçirilmişdir. Xüsusilə də, sərhədlərindən kənarda vətəndaşlarının hüquq və maraqlarının müdafiəsi üçün dövlət retorsiya tədbirləri qəbul edə bilərdi.

Milli hüquq ədəbiyyatlarında diplomatik müdafiə institutu ilə bağlı kifayət qədər geniş və hərtərəfli araşdırmalar hələlik aparılmamışdır. Yalnız bəzi müəlliflərin əsərlərində bu məsələyə toxunulur. Ə.İ.Əliyev qeyd edir ki,



diplomatik müdafiə beynəlxalq hüququn elementar prinsipi və mühüm institutudur, bunun vasitəsilə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və qanuni maraqlarının təmin edilməsi həyata keçirilir. Diplomatik müdafiə hər bir dövlətin dövlət suverenliyindən irəli gələn bir hüququdur. Həmçinin, diplomatik müdafiə dövlətin ayrılmaz hüququ olmaqla bərabər, hər bir vətəndaşlığı olmayan şəxsin və əcnəbinin hüquqları kompleksində mühüm yer tutur[10]. Beynəlxalq Hüquq Komissiyasının 2006-cı ildə təsdiq etdiyi Maddələr Layihəsi və onların Kommentariyaları adlı sənəddə diplomatik müdafiənin anlayışı və əsas elementləri ilə bağlı mühüm məsələlər öz əksini tapmışdır. Belə ki, 1-ci maddədə qeyd edilir ki, diplomatik müdafiə diplomatik tədbirlərin və dinc yolla nizamasalmanın digər metodları vasitəsilə bir dövlət tərəfindən digər dövlətin beynəlxalq hüququazidd əməli nəticəsində birinci dövlətin fiziki və hüquqi şəxslərinə vurulan ziyana görə digər dövləti məsuliyyətə cəlb etməsidir[11].

Bütövlükdə, diplomatik müdafiə mahiyyət etibarilə əsas hədəfi xarici vətəndaşa vurulmuş ziyana görə dövlətin məsuliyyə cəlb edilməsi və pozulmuş hüququn bərpası olan prosedurun icra edilməsindən ibarətdir.

**Üçüncü paraqrafda** dilomatik müdafiənin tətbiqi şərtləri, bu sahədə nəzəri və praktiki problemlər tədqiq olunur.

Diplomatik müdafiə hüquqları pozulmuş vətəndaşlarının adından dövlət tərəfindən həyata keçirilir. Diplomatik müdafiə dövlətin vəzifəsi deyil, hüququdur. Dövlətdaxili qanunvericilik dövləti öz vətəndaşlarının diplomatik müdafiəsini həyata keçirməyə məcbur edə bilər, lakin beynəlxalq hüquq normalarında belə öhdəlik nəzərdə tutulmamışdır. Yəni beynəlxalq hüquq normaları dövlətlərin üzərinə belə öhdəlik qoymur[12].

Dissertasiyada diplomatik müdafiənin tətbiqi zamanı nəzərə alınmalı olan bir sıra vacib şərtlər ardıcıllıqla təhlil edilir. Beynəlxalq təcrübəyə əsasən diplomatik müdafiə adətən yerləşmə dövlətində bütün yerli effektiv hüquqi müdafiə vasitələrinin tükənməsindən sonra təqdim edilir. Yəni, zərərçəkmiş olduğu dövlətin bütün inzibati və məhkəmə orqanlarına müraciət etsə də, öz hüquqlarının bərpasına nail ola bilməmişdir. Diplomatik müdafiənin tətbiqinin növbəti şərti vətəndaşlıq şərtidir. Beynəlxalq Hüquq Komissiyası tərəfindən təsdiq olunan 2006-cı il tarixli Diplomatik müdafiəyə dair

[10] Əliyev Ə.İ. İnsan Hüquqları. Dərslik, Bakı, Hüquq Ədəbiyyatı Nəşriyyatı, 2013, s. 477, 479.
[11] Draft Articles on Diplomatic Protection with commentaries. adopted by the International Law Commission at its fifty-eighth session, in 2006, and submitted to the General Assembly as a part of the Commission's report covering the work of that session (A/61/10).
[12] Touzé S. La protection des droits nationaux à l'étranger: Recherches sur la protection diplomatique. Paris, Pedone, 2007, p. 24-25.

Maddələr Layihəsi və onun Kommentariyalarının 3-cü və 4-cü maddələrinə əsasən diplomatik müdafiəni vətəndaşlıq dövləti həyata keçirə bilər. Fiziki şəxsin diplomatik müdafiəsi məqsədləri üçün vətəndaşlıq dövləti dedikdə, vətəndaşlığı müvafiq dövlətin milli qanunvericiliyinə uyğun olaraq, doğulma, naturalizasiya, dövlətlərin hüquq varisliyi və beynəlxalq hüquqa zidd olmayan digər vasitələrlə əldə olunan dövlət nəzərdə tutulur[13].

Diplomatik müdafiənin tətbiqinin növbəti vacib şərti davamlı vətəndaşlıq şərtidir. Maddələr Layihəsinin 5-ci maddəsinə əsasən dövlətin ziyan vurulan şəxsə ziyan vurulduğu andan rəsmi şəkildə müraciət olunan ana qədər davamlı (fasiləsiz) olaraq onun vətəndaşı olan şəxsə diplomatik müdafiə göstərmək hüququ var. Əgər ziyan vurulan vaxtdan diplomatik müdafiə ilə bağlı rəsmi müraciət olunan ana qədər şəxs vətəndaşlığını dəyişməyibsə, bu zaman davamlı vətəndaşlıq prezumpsiyası nəzərdə tutula bilər. Bir vacib məqam da qeyd edilməlidir ki, diplomatik müdafiə ilə bağlı rəsmi şəkildə müraciət edən andan sonra şəxs onun hüquqlarını pozan dövlətin vətəndaşlığını əldə edərsə, belə halda diplomatik müdafiə göstərilmir.

**Dördüncü paraqrafda** diplomatik müdafiənin tətbiqinin prosessual mərhələləri və vasitələri ilə əlaqədar mühüm məsələlər araşdırılmışdır.

Dissertasiyada beynəlxalq-hüquqi təcrübənin, diplomatik müdafiə və dövlətlərin beynəlxalq məsuliyyəti haqqında baza normaların və qeyd edilən müəlliflərin konseptual fikirləri əsasında diplomatik müdafiənin aşağıdakı prosessual mərhələləri fərqləndirilir:

- Diplomatik müdafiə qaydasında irəli sürülən iddianın mənşəyinin müəyyən edilməsi, yəni hüquqi şəxsin milli mənsubiyyəti və fiziki şəxsin vətəndaşlığı məsələlərinin aşkarlanması;
- Dövlət tərəfindən milli mənsubiyyət və vətəndaşlığın əsasının qiymətləndirilməsi, yəni hüquqi müdafiənin daxili vasitələrinin tükənməsi və dövlətin diplomatik müdafiə göstərilməsində əhəmiyyətli siyasi və iqtisadi maraqlarının müəyyənləşdirilməsi;
- İddianın irəli sürülməsinin əsaslı olması halında xüsusi razılaşma və ya estoppel prinsipi (müəyyən davranışla susmaqla razılıq bildirmək) əsasında iddia irəli sürmə hüququnun mənşə (hüquqi şəxslərə münasibətdə) və ya vətəndaşlıq (fiziki şəxslərə münasibətdə) dövlətinə keçməsi;
- Hüquq pozan dövlətə qarşı rəsmi şəkildə iddia irəli sürülməsi;

[13] Draft Articles on Diplomatic Protection with commentaries. Text adopted by the International Law Commission at its fifty-eighth session, in 2006, and submitted to the General Assembly as a part of the Commission's report covering the work of that session (A/61/10).



- Əgər hüquq pozan dövlət iddianı (protest, danışıqlar, məhkəmə və ya arbitraj, siyasi və ya iqtisadi təsir və s.) təmin etməyibsə, mənşə və ya vətəndaşlıq dövləti tərəfindən diplomatik müdafiənin beynəlxalq hüquqla yol verilən müxtəlif vasitələrindən istifadə;
- Pozulmuş hüquqların bərpasının təmin olunması və restitusiya, kompensasiya yolu ilə vurulmuş ziyanın əvəzinin ödənilməsi;
- Diplomatik müdafiə göstərilən hüquqi və ya fiziki şəxslərə hüquq pozan dövlətdən alınan vəsaitlər hesabına maddi kompensasiya ödənilməsi.

Beynəlxalq hüquqa uyğun olaraq diplomatik müdafiə qanuni və dinc vasitələrlə həyata keçirilməlidir. Diplomatik müdafiənin həyata keçirilməsi vaxtı dövlətlər həm diplomatik tədbirlərə, həm də məhkəmə baxışına müraciət edə bilərlər. Diplomatik tədbirlər bir dövlət tərəfindən öz fikirləri və narahatlığı haqqında başqa dövlətin məlumatlandırılması, həmçinin etiraz, mübahisələrin həllinə yönələn tədqiqatın və danışıqların aparılması üçün müraciət də daxil olmaqla istifadə edilən bütün qanuni prosedurları əhatə edir.

Diplomatik müdafiənin son vasitəsi kimi xaricdə yaşayan vətəndaşlarının həyat və təhlükəsizliyinin müdafiəsi məqsədilə silahlı qüvvələrdən birtərəfli qaydada istifadə BMT Nizamnaməsində təsbit olunmuş güc tətbiq etməmək və güc tətbiq etməklə hədələməmək prinsipinə zidd olduğundan qadağandır. BMT Nizamnaməsinin 2.4-cü maddəsinə əsasən üzv-dövlətlər öz beynəlxalq münasibətlərində hər hansı bir dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı və ya BMT məqsədləri ilə bir araya sığmayan hər hansı bir şəkildə güclə hədələməkdən və ya gücün tətbiqindən çəkinirlər.

**II Fəsil "Ayrı-ayrı kateqoriya şəxslərin diplomatik müdafiəsinin əsas elementləri və xüsusiyyətləri" adlanmaqla beş paraqrafı özündə təsbit edir.**

**Birinci paraqrafda** əcnəbilərin hüquqi statusu və diplomatik müdafiə problemi tədqiq edilmişdir.

Hüquq ədəbiyyatlarında əcnəbi anlayışına həm geniş, həm də dar mənada yanaşılır. Dar mənada əcnəbi dedikdə, dövlətin ərazisində olan, lakin digər dövlətin vətəndaşlığına malik olan şəxslər başa düşülür. Yəni, əcnəbi anlayışına dar mənada tərif verərkən bura yalnız həmin dövlətin ərazisində yaşayan digər dövlətin vətəndaşları - əcnəbi vətəndaşlar aid edilir, vətəndaşlığı olmayan şəxslər isə əcnəbi terminə daxil edilmir. Geniş mənada əcnəbi anlayışına yerləşmə dövlətinin vətəndaşlığına malik olmayan bütün şəxslər

aiddir. Yəni, buraya həm digər dövlətin vətəndaşları, həm də vətəndaşlığı olmayan şəxslər aid edilir[14].

Milli qanunvericiliyimizdə əcnəbilərə ölkə vətəndaşları ilə bərabər hüquqlar verilir. AR Konstitusiyasının 69-cu maddəsinə müvafiq olaraq, əcnəbilər AR vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər. Adekvat norma Beynəlxalq xüsusi hüquq haqqında 6 iyun 2000-ci il tarixli AR Qanununda da təsbit edilmişdir. Qanunun 15-ci maddəsinə əsasən xarici hüquqi şəxslər, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər AR-in hüquqi şəxsləri və vətəndaşları ilə bərabər müvafiq olaraq mülki hüquq və fəaliyyət qabiliyyətinə malikdir. Qarşılıqlı olaraq cavab tədbiri kimi bu qaydadan istisnalar müəyyən edilə bilər.

Əcnəbilərin prosessual hüquqlara malik olması ilə bağlı müddəalar insan hüquqlarının müdafiəsi ilə bağlı fundamental beynəlxalq-hüquqi aktlarda da öz təsbitini tapmışdır. 1948-ci il Ümumdünya İnsan hüquqları Bəyannaməsi, 1966-cı il Beynəlxalq paktları və s. beynəlxalq sazişlər digər sahələrdə olduğu kimi, prosessual hüquqlarının realizəsində də dövlətlər üçün öhdəliklər müəyyən edir. Bəyannamədə qeyd edilir ki, bütün insanlar qanun qarşısında bərabərdirlər və heç bir fərq qoyulmadan qanun tərəfindən bərabər müdafiə olunmaq hüququna malikdirlər. Hər kəs hazırkı Bəyannaməni pozan istənilən ayrı-seçkilik aktından və belə bir ayrı-seçkiliyə hər cür təhrikdən müdafiə olunmaqda bərabər hüquqlara malikdirlər (maddə 8). Bəyannamədən fərqli olaraq, 1966-cı il Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda prosessual hüquqlar məzmun baxımından daha geniş ifadə edilmişdir. Paktın 2-ci maddəsinə əsasən əsasən istənilən şəxsin hazırki Paktda qəbul edilən hüquq və azadlıqları pozulduğu təqdirdə, hətta bu pozuntu rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədilmiş olsa belə, onu səmərəli müdafiə vasitələrilə təmin etməyi hər bir dövlət öz öhdəsinə götürür.

Əcnəbilərin prosessual hüquqlarının realizəsi zamanı ixtisaslı hüquqi yardımın göstərilməsi xüsusi önəm kəsb edir. Bu norma AR Konstitusiyasında öz təsbitini tapmışdır. Konstitusiyanın 61-ci maddısində qeyd edilir ki, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır. Qanunla nəzərdə tutulmuş hallarda hüquqi yardım ödənişsiz, dövlət hesabına göstərilir. Hər bir şəxsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ vardır.

İxtisaslı hüquqi yardımı adətən vəkillər göstərir, lakin bu sferada nümayəndəlik institutu da inkişaf etmişdir. Vəkil nümayəndə qismində çıxış

[14] Международное право. Учебник. Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., 2000, с. 160.



etmək üçün hüquqları qorunan şəxsdən etibarnamə almalıdır. Etibarnamə məhkəmə prosesi gedən dövlətdə (lex fori), həmçinin, əcnəbinin olduğu yerdə (lex loci) verilə bilər. Mülki-prosessual qanunvericilikdən fərqli olaraq, beynəlxalq sazişlərdə, o cümlədən konsulluq konvensiyalarında yurisdiksiya fərqinə görə nümayəndəlik institutu daha geniş məzmuna malikdir. Konsulluq sazişləri konsulu öz vətəndaşlarının hüquqlarının qorunmasında nümayəndə kimi təqdim edir[15].

**İkinci paraqraf** vətəndaşlığı olmayan şəxslərin diplomatik müdafiə edilməsi probleminə həsr olunmuşdur.

İnsanın (hər kəsin və ya fərdin) vətəndaşdan əsaslı fərqi bir də onunla şərtləndirilir ki, vətəndaş bioloji varlıq kimi insan olsa da, insan vətəndaş olmaya da bilər. İnsan bu və ya digər məqsədlərlə gəldiyi, daimi və yaxud müvəqqəti yaşadığı dövlətin vətəndaşlığını qəbul etməyə də bilər. Lakin bütün bunlara baxmayaraq hər bir insan beynəlxalq hüquq normalarında nəzərdə tutulmuş hüquqlardan və azadlıqlardan heç bir halda məhrum edilə bilməz və buna qanunla yol verilmir. Vətəndaşlıq məsələsi çox mürəkkəb və həssas məsələdir, çünki o, ölkənin özünü müəyyənetmə və suverenliyindən irəli gəlir. Buna görə də, vətəndaşlıq məsələsi ilə bağlı mübahisələr həm ölkə daxilində, həm də ölkələr arasında münaqişələrə səbəb ola bilər. XX əsrdən başlayaraq vətəndaşlığı olmayan şəxslərin (apatridlərin) sayı artmışdır. Bu səbəbdən beynəlxalq hüquqda vətəndaşsızlıq hallarının aradan qaldırılması və vətəndaşlığı olmayan şəxslərin insan hüquqları aspektindən müdafiəsi üzrə iki əsas istiqamət inkişaf etmişdir: vətəndaşlığı olmayan şəxslərə diplomatik müdafiənin göstərilməsi və vətəndaşsızlıq hallarının aradan qaldırılması.

Vətəndaşsızlıq – şəxsin heç bir dövlətin vətəndaşlığını daşımadığı hüquqi vəziyyətdir. Bəzi müəlliflərin fikrincə, apatrizm hər hansı bir dövlətin vətəndaşlığının olmaması ilə xarakterizə olunan vəziyyətdir. Digərləri isə hesab edirlər ki, bu şəxsin hər hansı bir dövlətlə siyasi-hüquqi bağlılığının olmaması vəziyyətidir. Beynəlxalq hüquqda mütləq və nisbi; real və faktiki vətəndaşsızlıq fərqləndirilir. Mütləq vətəndaşsızlıq şəxsin doğulduğu andan yaranır, nisbi vətəndaşsızlıq isə vətəndaşlığın itirilməsi ilə yaranır[16]. Real vətəndaşsızlıq şəxsin hər hansı bir dövlətlə siyasi-hüquqi bağlılığını tamamilə istisna edir. Faktiki vətəndaşsızlıq, şəxsin öz vətəndaşlığını itirmədiyi hallarda mövcud olur. Ümumiyyətlə, beynəlxalq hüquqda

[15] Котляр В.С. Роль консульских функций в современном мире и их правовая основа.// Молодой ученый. 2014, № 6. с. 560-563.

[16] Аскери И.И. Дипломатическая защита лиц без гражданства и беженцев в международном праве.. Юридические науки. 2012. №1(8), с. 15.

vətəndaşsızlıq hallarının aradan qaldırılması tendensiyası daim hökm sürmüşdür. Beynəlxalq hüququn məcəllələşdirilməsi üzrə 1930-cu il Haaqa Konfransı vətəndaşsızlıq hallarının azaldılması ilə bağlı bir sıra müddəalar (ərli qadınlar və uşaqların vətəndaşlığı, apatrizm vəziyyətinin sadələşdirilməsi və s.) qəbul etmişdir. Bu müddəalar vətəndaşsızlıq hallarının azaldılması və vətəndaşlığı olmayan şəxslərin vəziyyətinin yaxşılaşdırılmasına yönəlmişdir[17].

1948-ci il tarixli Ümumdünya İnsan hüquqları Bəyannaməsi, 1961-ci il Vətəndaşsızlıq hallarının ixtisarı haqqında Konvensiya, Vətəndaşlıq haqqında 1997-ci il Avropa Konvensiyası kimi beynəlxalq-hüquqi aktlarda hər bir şəxsin vətəndaşlıq hüququnu və insanların vətəndaşlıqdan məhrum edilməməsini bəyan edir.

Aparılan təhlillərlə belə bir elmi nəticə əsaslandırılır ki, dövlətin ərazisində qanuni əsaslarla daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə diplomatik müdafiənin göstərilməsi beynəlxalq hüquqa tam müvafiqdir. Diplomatik müdafiə sahəsində baş vermiş müsbət dəyişikliklər vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqlarının müdafiəsinə, o cümlədən həmin kateqoriyadan olan şəxslərə diplomatik müdafiənin təqdim edilməsinə şərait yaratmışdır. Bütün bunlar ümumi şəkildə insan hüquqlarının müdafiəsi sferasında beynəlxalq normativ bazanın inkişafı ilə uyğunlaşdırılır.

**Üçüncü paraqrafda** ikili və çoxqat vətəndaşlığı olan şəxslərə diplomatik müdafiənin göstərilməsi məsələləri təhlil edilmişdir. İkili vətəndaşlıq adətən ərazi dəyişikliklərinə, əhalinin miqrasiyası, vətəndaşlıq haqqında dövlətlərin qanunvericiliklərinin kolliziyasına ("torpaq hüququ" və "qan hüququ" arasındakı ziddiyyətlər) görə yaranır. İkili vətəndaşlığın yaranmasının səbəbi, məsələn, qadının xarici vətəndaşla nikaha girməsi ola bilər, əgər yerli qanunvericilik nikahın nəticəsindən sonra onu vətəndaşlıqdan məhrum etmirsə, və ərin ölkəsinin qanunvericiliyi ona ərinin ölkəsinin vətəndaşlığını avtomatik olaraq verirsə.

Dövlətlər ikili vətəndaşlıq probleminə müxtəlif cür yanaşırlar. Bir sıra dövlətlər (Böyük Britaniya, İrlandiya, İspaniya, Fransa, Kanada) ikili vətəndaşlığı tanıyır, yəni öz vətəndaşlarına başqa dövlətin vətəndaşlığına malik olmağa icazə verirlər. Başqa dövlətlər (ABŞ, Rusiya, İtaliya, Belçika, Niderland) ikili vətəndaşlığa icazə verir və ya yeninin əldə edilməsi vaxtı əvvəlki vətəndaşlıqdan imtinanı tələb etmir. Bəzi dövlətlər (Almaniya, İsveç) isə ikili vətəndaşlığı qadağan edirlər və ya bunu güman etmirlər (icazə

[17] Оппенгейм Л. Международное право. Том 1. МИР полутом 2. Пер. с анг. Под ред. С.Б.Крылова. М., 1996, с. 234-235.



vermirlər). AR-in vətəndaşlığı haqqında 30 sentyabr 1998-ci il tarixli AR Qanununun 2-ci maddəsində qeyd edilir ki, AR Konstitusiyasının 53-cü maddəsinin I hissəsinə görə, AR-in vətəndaşı heç bir halda AR-in vətəndaşlığından məhrum edilə bilməz. AR Konstitusiyasının 53-cü maddəsinin II hissəsinə görə, AR-in vətəndaşı heç bir halda AR-dən qovula və ya xarici dövlətə verilə bilməz. Vətəndaşlıq hüququnun təminatı üçün Azərbaycan dövləti öz orqanlarının və vəzifəli şəxslərinin simasında AR vətəndaşları qarşısında məsuliyyət daşıyır. 10-cu maddədə isə birbaşa qeyd edilir ki, AR-in vətəndaşı olan şəxsin ikili vətəndaşlığı olduqda (AR vətəndaşlığı ilə yanaşı, digər dövlətin (dövlətlərin) vətəndaşı olduqda) həmin şəxsin xarici dövlətin vətəndaşlığına mənsubiyyəti, AR-in beynəlxalq müqavilələrində nəzərdə tutulmuş və ya AR Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndinə müvafiq surətdə həll edilmiş hallar istisna olmaqla tanınmır. Xarici dövlətin vətəndaşlığını qəbul etmiş AR-in vətəndaşı bir ay müddətində bu barədə müvafiq icra hakimiyyəti orqanına yazılı məlumat verməlidir. Belə məlumatı verməyən şəxslər AR-in Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

Avropa ölkələrinin əksəriyyətində son onillik ərzində ikili vətəndaşlıq reallığa çevrilmişdir. Çox ölkələrdə o haqda fikir möhkəmləndi ki, bu institut ikiqat loyallığı və daha az sədaqəti iki dövlətdən birinə güman etmir, əksinə, gəlmə əhalinin əminliyinin artımının olduqca effektiv vasitəsini təşkil edir, onda yerləşmə ölkəsinə etibarlılığı daha da artırır, dövlətdə və cəmiyyətdə siyasi və hüquqi sabitliyin möhkəmləndirilməsinə imkan yaradır. Güman edilir ki, hüquq və azadlıqların təminatı planında ikili vətəndaşlıq onların realizəsi və müdafiəsi üçün əlavə zəmanətlər verir, xüsusilə də, hər iki dövlətdə yaşayış hüququna malik olmaq, bu dövlətlərin əraziləri ilə hərəkət azadlıqları, ölkəyə qayıdış və ya remiqrasiya məsələlərində[18].

2006-cı il tarixli Diplomatik müdafiə haqqında Maddələr Layihəsinin 7-ci maddəsində qeyd edilir ki, ikili vətəndaşlığı olan şəxsə vətəndaşı olduğu dövlətlərdən biri tərəfindən diplomatik müdafiə o halda göstərilə bilər ki, şəxs zərər vurulan və iddia qaldırılan vaxtlarda diplomatik müdafiəni göstərən dövlətlə effektiv vətəndaşlıq münasibətində olsun.

Beləliklə, ikili vətəndaşlığı olan şəxslərə diplomatik müdafiənin göstərilməsi məsələsində effektiv vətəndaşlıq prinsipinə müasir beynəlxalq münasibətlərdə üstünlük verilir, həmçinin hüquq ədəbiyyatlarında müəlliflərin də əksəriyyəti müvafiq məsələdə bu prinsipin tətbiqinin tərəfdarıdır. Bu prinsip

[18] Микитаев А. К., Рыжонков Д. И. О концепции двойного гражданства//Актуальные проблемы гражданства: Материалы международной научно-практической конференции. с. 109-111.

insan hüquqlarının müdafiəsi baxımından da səmərəli vasitə hesab olunur. Belə ki, məhz bu prinsipin tətbiqi zamanı çoxsaylı fiziki şəxslərin hüquq və azadlıqlarının müdafiəsini təmin etmək mümkündür.

**Dördüncü paraqrafda** qaçqınlara münasibətdə diplomatik müdafiə göstərilməsi problemi araşdırılmışdır.

Qaçqınların hüquqi statusu və müdafiəsi ilə bağlı normalar insan hüquqlarının müdafiəsi üzrə fundamental beynəlxalq-hüquqi sənədlərdə öz təsbitini tapmışdır. 1948-ci il Ümumdünya İnsan hüquqları Bəyannaməsinin 2-ci maddəsində qeyd edilir ki, insanın mənsub olduğu ölkənin və ya ərazinin siyasi, hüquqi və beynəlxalq statusuna, bu ərazinin müstəqil, asılı, özünü idarə etməyən və ya suverenliyi hər hansı digər şəkildə məhdudlaşdıran ərazi olub-olmamasından asılı olmayaraq, insan ayrı-seçkiliyə məruz qala bilməz. Bu maddənin şərhindən belə qənaətə gəlmək olar ki, öz dövlətini və ya daimi yaşayış yerini tərk edən qaçqın gəldiyi dövlətin ərazisində özündən asılı olmayan səbəblərə görə ayrı-seçkiliyə məruz qalmamalıdır.

Qaçqınların problemlərinin tənzimlənməsi üzrə əsas beynəlxalq-hüquqi akt 1951-ci il tarixli Qaçqınlara münasibətdə Beynəlxalq hüququn böyük Xartiyası adlı 1954-cü ildə qüvvəyə minmiş Konvensiyadır[19]. Uşaq hüquqları haqqında 1989-cu il Konvensiyasının 22-ci maddəsində qeyd edilir ki, Konvensiyanın iştirakçı-dövlətləri qaçqın statusu almaq istəyən və ya qaçqın olan uşaqlara lazımi yardım göstərməlidir. 1962-ci il Sosial təminat sahəsində bərabərhüquqluluq haqqında BƏT Konvensiyasına əsasən onun müddəaları heç bir qarşılıqlı şərt olmadan qaçqın və vətəndaşlığı olmayan şəxslərə tətbiq edilir. Qaçqınlarla bağlı problemlərin həlli Respublikamızda da ən vacib məsələlərdən biridir. Müvafiq problemin hüquqi tənzimlənməsində AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələr (Respublikamız 1951-ci il Konvensiyasına qoşulmuşdur) və dövlətdaxili qanunvericilik əsas rol oynayır. Qaçqınların hüquqi vəziyyətinin tənzimlənməsində əsas dövlətdaxili normativ akt 21 may 1999-cu il tarixli Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında AR Qanunudur. Qanunda "qaçqın"a anlayış verilir. Qanunun 1-ci maddəsinə əsasən, qaçqın - AR vətəndaşı olmayıb, irqi əlamətinə, milliyyətinə, dini etiqadına, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaq barəsində tam əsaslı ehtiyat üzündən vətəndaşı olduğu ölkədən kənarda qalan və eyni ehtiyat üzündən həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə

[19] Международно-правовые основы борьбы с незаконной миграцией и торговлей людьми. Сб. док. Сост. В.С.Овчинский. М., 2004, с. 6.



etmək istəməyən, yaxud müəyyən vətəndaşlığı olmayıb oxşar hallar nəticəsində əvvəl adətən yaşadığı ölkədən kənarda qalan, ehtiyat üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir.

Qaçqınlar vətəndaşı olduğu dövlətin diplomatik müdafiəsindən məhrumdur, belə məhrumiyyət könüllü, vətəndaşı olduğu dövlətin iradəsi ilə və ya həm şəxsdən, həm də vətəndaşlıq dövlətindən asılı olmayan səbəblərdən yarana bilər. Qaçqın vətəndaşı olduğu dövlətin səlahiyyətli orqanlarına diplomatik müdafiə göstərilməsi ilə bağlı müraciət edə bilər. Lakin bir vacib məqamı qeyd edək ki, belə olan halda şəxs qaçqın statusunu itirir. Bu və ya digər dövlətin vətəndaşı olmayan qaçqınlara gəldikdə isə, onların statusu vətəndaşlığı olmayan şəxslərin statusu ilə bərabərdir. Bununla belə, onlar hər hansı bir dövlətin vətəndaşlığını əldə edə və həmin dövlətin diplomatik müdafiəsindən istifadə edə bilər.

Qaçqınlara diplomatik müdafiənin göstərilməsi probleminin tədqiqində bu kateqoriyadan olan şəxslərə sığınacaq vermiş dövlət tərəfindən onların hüquqlarının qorunması mühüm əhəmiyyət kəsb edir. Mahiyyət etibarilə sığınacaq verən dövlətin vəzifəsi öz ərazisində, diplomatik və ya konsul təsisatının yerləşdiyi ərazidə, hərbi gəmilərində qaçqını, onun vətəndaşı olduğu və ya daimi yaşayış yeri olan dövlətin yurisdiksiyasından qorumaq, ona minimal standart şəraiti yaratmaqdır. Sığınacaq verən dövlət qaçqının, onun sərhədlərini tərk etməsinə mane olmur, əksinə 1951-ci il Konvensiyasının 28-ci maddəsinə müvafiq olaraq, dövlət təhlükəsizliyi və ictimai qaydaya zidd olmamaqla ərazisində yaşayan qaçqınlara yol sənədləri də verirlər.

**Beşinci paraqrafda** hüquqi şəxslərə diplomatik müdafiənin göstərilməsi xüsusiyyətləri ilə bağlı məsələlər tədqiq olunmuşdur.

Hüquqi şəxslərə diplomatik müdafiə hüququnun həyata keçirilməsi onların beynəlxalq hüquq nöqteyi nəzərindən müəyyən məqsədlər üçün dövlət mənsubiyyətinə malik olmasının tanınmasına əsaslanır. Hüquqi şəxslərin dövlət mənsubiyyəti dedikdə, onun dövlətlə real, əhəmiyyətli əlaqəsinin mövcudluğu nəzərdə tutulur.

Diplomatik müdafiə haqqında 2006-cı il tarixli Maddələr Layihəsinin 9-cu maddəsinə əsasən hüquqi şəxslərin diplomatik müdafiəsi məqsədilə dövlət mənsubiyyəti dedikdə, müvafiq hüquqi şəxsin həmin dövlətin daxili qanununa əsasən təsis olunması nəzərdə tutulur. Əgər həmin hüquqi şəxsə digər dövlətin vətəndaşları və ya digər dövlətlər nəzarət edirsə, təsis olunduğu dövlətdə əhəmiyyətli kommersiya fəaliyyətinə malik deyilsə, idarəetmə mərkəzi və maliyyə nəzarəti digər dövlətdə yerləşirsə, onda həmin dövlət hüquqi şəxsin mənsub olduğu dövlət hesab olunur.

Göründüyü kimi Maddələr Layihəsi hüquqi şəxslərə diplomatik müdafiənin verilməsini tanıyır. Lakin fiziki şəxslərdə olduğu kimi, burada da müəyyən şərtlərə əməl olunmalıdır. Həm fiziki şəxslərdə, həm də hüquqi şəxslərdə diplomatik müdafiənin verilməsi dövlətlərin müstəsna səlahiyyətləri çərçivəsinə daxildir. Beynəlxalq Məhkəmənin Barselona Trekşn işi üzrə qərarına müvafiq olaraq, beynəlxalq hüquq hüquqi şəxsləri dövlətlərin daxili hüquq normalarına əsasən təsis edilən institut kimi tanıyır. Bu isə öz növbəsində o deməkdir ki, hüquqi şəxslər və səhmdarlarla bağlı məsələlər meydana çıxan zaman dövlətdaxili qanunvericiliyə müraciət olunmalıdır, çünki bu sfera beynəlxalq hüququn yurisdiksiyasından kənardadır. Hüquqi şəxslərin yaradılması, fəaliyyəti və ləğvi ilə bağlı beynəlxalq hüququn öz normaları olmadığından, müvafiq sferdakı məsələlərin tənzimlənməsi üçün dövlətdaxili hüquqa üz tutulur.

Hüquqi şəxslərin dövlət mənsubiyyəti meyarı fiziki şəxslərin vətəndaşlığı meyarına adekvat norma qismində formalaşmışdır. Barselona Trekşn işi üzrə qərarında Beynəlxalq Məhkəmə qeyd edirdi ki, diplomatik müdafiə məqsədilə hüquqi şəxslərin dövlət mənsubiyyəti məsələsinin müəyyənləşdirilməsində beynəlxalq hüquq məhdud şəkildə fiziki şəxslərin vətəndaşlığı meyarına analogiya üzrə əsaslanır.

Hüquqi şəxslərin dövlət mənsubiyyəti və fiziki şəxslərin vətəndaşlığı anlayışları arasında əsas fərq bir sıra məsələlərdə özünü büruzə verir. Bir qayda olaraq, dövlətin daxili qanunvericiliyi hüquqi şəxslərin dövlət mənsubiyyəti anlayışını müəyyən etmir, hansı hüquqi şəxslər və hansı meyarlar üzrə bu dövlətin dövlət mənsubiyyətinə malik olmasını birmənalı şəkildə müəyyən etmir. Hüquqi şəxslərin dövlət mənsubiyyətinin vahid meyarları yoxdur, onun məzmunu bəzən konkret tətbiq edilən hüquq normasının kontekstindən asılıdır. Bununla belə, müəyyən hüquq sahələrində hüquqi şəxslərin milliyyətinə göndərmələr verilir (konstitusiya hüququ, vergi hüququ, mülki qanunvericilik və s). Hüquqi şəxslərin dövlət mənsubiyyəti, həmçinin diplomatik müdafiə məqsədi üçün, növbəti meyarlara əsaslanaraq müəyyən edilir: hüquqi şəxsin təsis olunduğu (qeydiyyatının) yer (yaradıldığı və qeydiyyat ölkəsinin qanunvericiliyi üzrə nizamnaməsinin təsdiq edildiyi yer); hüquqi şəxsin rəhbər orqanlarının olduğu yer (idarələr, direktorlar şurası, müəssisənin iş mərkəzi); əsas təsərrüfat fəaliyyətinin yeri[20].

[20] Smith H. Legal standing of shareholders in international law. Matthew Weiniger Partner Herbert Smith LLP. 6 May 2011.



**III Fəsil “Diplomatik müdafiə problemi və Azərbaycan Respublikasının milli qanunvericiliyinin inkişafı” adlanmaqla üç paraqrafı özündə birləşdirir.**

**Birinci paraqrafda** AR-də diplomatik müdafiə institutunun formalaşması və müasir vəziyyəti ilə bağlı məsələlər araşdırılmışdır.

Hər bir dövlətdə olduğu kimi, AR-də də diplomatik müdafiə institutu diplomatiya, əcnəbilərin hüquqi statusu problemi ilə paralel inkişaf etmişdir. Buna görə də, dissertasiya işində diplomatik müdafiə institutunun formalaşmasına tarixin müxtəlif mərhələlərində AR ərazisində olan əcnəbilərin hüquqi statusu və onların hüquqlarının müdafiəsi problemi ilə müqayisəli şəkildə yanaşılmışdır.

Qədim dövrdə həm Şərq dövlətlərində, həm də Azərbaycanda diplomatik əlaqələr dövlət başçılarının adından yaradılır, onların rəhbərliyi altında davam etdirilirdi. İlkin orta əsrlər diplomatiyasının fərqləndirici xüsusiyyəti onda idi ki, dövlətlərin möhkəm, sabit sərhədləri yox idi. Orta əsrlərdə diplomatik müdafiə institutu əcnəbi tacirlərə münasibətdə geniş şəraitin yaradılması ilə xarakterizə olunurdu. Belə ki, Avropa ölkələri ilə ticarət münasibətlərini inkişaf etdirən Səfəvilər dövləti əcnəbi tacirlərə və onları birləşdirən qurumlara münasibətdə daha əlverişli rejim təqdim edirdilər. Səfəvilərin hakimiyyətinin sonrakı mərhələlərində Avropa dövlətləri ilə əlaqələri daha da gücləndirərək əcnəbilərin ölkə ərazisinə azad daxil olması və tərk etməsi qaydaları qorunub saxlanılmağa çalışılmışdır.

Şimali Azərbaycanda XIX əsrdə həyata keçirilən köçürmə siyasəti ölkə ərazisində əhalinin etnik tərkibində müəyyən dəyişikliklərin edilməsinə gətirib çıxardı. Bu isə müdafiəyə ehtiyacı olan əhalinin problemlərinin artmasına, yəni diplomatik müdafiə institutuna ciddi zərurət yaratmışdı. 1828-ci il Türkmənçay Müqaviləsinin X maddəsi ticarət sahəsində diplomatik müdafiənin təqdim edilməsi, Müqavilə tərəflərinin tacirlərinin hüquqlarının qorunması istiqamətində mühüm addım sayıla bilər. Həmin normaya əsasən hər iki dövlətin ərazisində konsulluqların və ticarət agentliklərinin yaradılması nəzərdə tutulurdu.

1918-1920-ci illərdə 23 aylıq dövrdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin bir çox qanunvericilik aktları və bağladığı ikitərəfli müqavilələrində də əcnəbilərin hüquqi statusuna təsir göstərən müəyyən müddəalar təsbit edilmişdir. Nümunə qismində 1920-ci ilin mart ayının 20-də Azərbaycan Xalq Cümhuriyyəti və İran arasında gömrük, ticarət, poçt-teleqraf, konsul əlaqələri haqqında sazişlərin bağlanmasını göstərmək olar. Azərbaycan və Litva Demokratik Respublikası hökumətləri arasında imzalanmış 1920-ci il Sazişinə uyğun olaraq hər iki dövlət bir-birilərinin

ərazilərində yaşayan vətəndaşlarının hüquqlarını tam şəkildə təmin etməlidirlər. Həmin dövrdə Bakıda 20-dən çox diplomatik nümayəndəliyin olması, o cümlədən Böyük Britaniya, Fransa, İtaliya, ABŞ, İsveçrə, Polşa, Latviya, Litva, Estoniya, Finlandiya, Ukrayna, Rumıniya, Almaniya və Rusiyada diplomatik nümayəndəliklərin açılması barədə qanunların qəbul edilməsi əcnəbilərin hüquqlarının qorunması, onların diplomatik müdafiə ilə təmin olunması vasitələrindən biri hesab olunmalıdır.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Sovet hakimiyyətinin işğalı nəticəsində bütün sferalarda mövcud olan münasibətlər kimi əcnəbilərlə bağlı məsələlər də tamamilə yenidən baxılmağa məruz qalmışdır. Belə ki, Azərbaycan Sovet hakimiyyətinin ilk vaxtı daxili və xarici siyasətdə üzləşdiyi problemlərdən biri də əcnəbi vətəndaşların – diplomatik əməkdaşların, ticarətlə məşğul olanların, jurnalistlərin, hərbi əsirlərin, Birinci Dünya Müharibəsində Azərbaycana gələn mühacirlərin, qaçqınların vəziyyəti idi.

XX əsrin 90-cu illərində dövlət müstəqilliyinin bərpasından sonra AR-də diplomatik müdafiənin formalaşması tarixi ilə bağlı məsələləri tədqiq edərkən milli diasporun yaranması və müasir durumu ilə bağlı məsələlərin araşdırılması da xüsusi önəm kəsb edir. Azərbaycan diasporunun formalaşması tarixi kifayət qədər uzun bir zaman kəsiyini əhatə edir. Belə ki, 2002-ci ildə diaspora işi ilə birbaşa məşğul olan, xüsusi dövlət qurumu - Xarici ölkələrdə yaşayan azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi yaradıldı. Həmin dövrdə yaradılmış Dövlət Komitəsi xaricdə yaşayan soydaşlarımızla vətən arasında əlaqələrin qurulması, diaspor təşkilatları arasında birlik və bərabərliyin təmin olunması, dünyanın müxtəlif ölkələrində məskunlaşmış azərbaycanlıların həmin ölkələrdə üzləşdikləri problemlərin həllinə yardımçı olmağı qarşısına məqsəd qoyurdu. Qısa zaman ərzində Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi ayrı-ayrı diaspor təşkilatları ilə əlaqələr qurmuş, xaricdə yaşayan soydaşlarımızın birliyinin təmin edilməsi, o cümlədən diplomatik müdafiənin həyata keçirilməsi istiqamətlərində mühüm addımlar atmışdır.

**İkinci paraqrafda** diplomatik müdafiə sferasında beynəlxalq hüquq normalarının milli qanunvericiliyin formalaşmasına təsiri problemi tədqiq edilir.

AR Konstitusiyasında beynəlxalq hüquqla milli hüququn qarsılıqlı münasibətini müəyyən edən kifayər qədər normalar təsbit olunmuşdur. Belə ki, Konstitusiyanın 7, 10, 12-ci maddələri, 95-ci maddənin 4-cü bəndi, 109-cu maddənin 17-ci bəndi, 109-cu maddənin 30-cu bəndi, 148-ci maddəsinin 2-ci hissəsi, 151-ci maddəsi və digər normaları beynəlxalq hüquqla bağlı müxtəlif məsələləri tənzim edir. Bunların içərisində mərkəzi yeri 10, 12, 148.II və 151-ci maddələri tutur.



AR diplomatik müdafiə sferasında mövcud olan bir sıra mühüm beynəlxalq müqavilələrə qoşulmaqla müvafiq sferada qəbul edilən milli normativ hüquqi aktlarda həmin beynəlxalq hüquq normalarından yararlanmışdır. Həmin müqavilələr arasında Diplomatik münasibətlər haqqında Vyana Konvensiyası, Konsulluq münasibətlər haqqında Vyana Konvensiyası, Qaçqınların statusu haqqında Konvensiya, İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya, Apatridlərin statusu haqqında Konvensiya, Vətəndaşsızlıq hallarının ixtisarı haqqında Konvensiya və s. beynəlxalq sənədləri xüsusi qeyd etmək lazımdır.

Qeyd edilən beynəlxalq konvensiyaların müddəaları nəzərə alınmaqla Respublikamızda diplomatik müdafiə məsələlərinin tənzimlənməsi üzrə bir sıra dövlətdaxili qanunvericilik aktları qəbul edilmişdir. Bunlara AR-in Vətəndaşlığı haqqında 30 sentyabr 1998-ci il tarixli AR Qanunu, 1 mart 1994-cü il tarixli AR-in Konsul Nizamnaməsi, AR-in beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları haqqında 13 iyun 1995-ci il tarixli AR Qanunu, Diplomatik xidmət haqqında 8 iyun 2001-ci il tarixli AR Qanunu, Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında 27 dekabr 2002-ci il tarixli AR Qanununu və s. qeyd etmək olar.

Qanunlarla yanaşı, digər normativ-hüquqi aktlar da bu zaman xüsusi qeyd edilməlidir. Məsələn, AR vətəndaşlarının təhsil almaq üçün xarici ölkələrə göndərilməsi və xarici ölkə vətəndaşlarının AR-in təhsil müəssisələrində təhsil almaları haqqında Əsasnamənin təsdiq edilməsi barədə Nazirlər Kabinetinin Qərarı və s.

**Üçüncü paraqrafda** diplomatik müdafiə sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi və inkişaf tendensiyası məsələləri tədqiq edilmişdir.

Diplomatik müdafiə sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi ölkəmizdə mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. AR Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 saylı Fərmanı ilə təsdiq edilmiş Azərbaycan 2020: Gələcəyə Baxış İnkişaf Konsepsiyasına əsasən qanunvericiliyin təkmilləşdirilməsində, milli qanunvericilik bazasının beynəlxalq ticarət sisteminin tələblərinə uyğunlaşdırılması prioritetləri diqqət mərkəzində saxlanılmaqla, qanunun aliliyinin təmin edilməsi məqsədi ilə icra intizamı və nəzarət sistemi gücləndirilməsi nəzərdə tutulmuşdur.

1994-cü il tarixli AR-in Konsul Nizamnaməsinə əsasən konsullar xarici dövlətlərdə Respublikamızın, onun vətəndaşlarının və hüquqi şəxslərinin hüquq və mənafeyini müdafiə edir. Nizamnamənin 6-cı maddəsində qeyd olunur ki, konsul nizamnamədə təsbit olunmayan başqa funksiyaları da yerinə yetirə bilər, bu şərtlə ki, həmin funksiyalar AR qanunvericiliyinə və

konsulluğun olduğu dövlətin qanunvericiliyinə zidd olmasın. Belə yanaşma AR-in müqavilə praktikasına, həmçinin Konsul münasubətləri haqqında 1963-cü il Vyana Konvensiyasının 5-ci maddəsinə də əsaslanır.

Azərbaycan Respublikasının vətəndaşlığı haqqında 30 sentyabr 1998-ci il AR Qanununun 9-cu maddəsinə əsasən AR dövlət orqanları, xarici dövlətlərdəki və beynəlxalq təşkilatlardakı diplomatik nümayəndəlikləri və konsulluqları, habelə onların vəzifəli şəxsləri AR ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan AR vətəndaşlarının AR-in tərəfdar çıxdığı beynəlxalq hüquqi sənədlərinə, xarici dövlətin qanunvericiliyinə, AR ilə onun vətəndaşlarının yaşadığı dövlət arasında bağlanmış müqavilələrə, habelə beynəlxalq adətlərə uyğun olaraq onlara verilmiş bütün hüquqlardan tam həcmdə istifadə edə bilmələri üçün tədbirlər görməyə, qanunvericilikdə müəyyən edilmiş qaydalara, onların qanunla qorunan hüquq və mənafelərini müdafiə etməyə, zərurət olduqda isə AR vətəndaşlarının pozulmuş hüquqlarının bərpası üçün tədbirlər görməyə borcludurlar.

Diplomatik xidmət haqqında 8 iyun 2001-ci il tarixli AR Qanununun 3-cü maddəsində AR diplomatik xidmət orqanlarının bir sıra mühüm vəzifələri – AR-in xarici siyasətinin həyata keçirilməsinin təmin edilməsi, AR-in, onun vətəndaşlarının və hüquqi şəxslərinin xaricdə hüquq və maraqlarının müdafiə olunması və s. təsbit olunmuşdur. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında AR Qanununun 3-cü maddəsində qeyd olunur ki, xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti AR-in daxili və xarici siyasətinin ayrılmaz tərkib hissəsidir. Bu siyasəti həyata keçirərkən AR beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə, o cümlədən, insan hüquq və azadlıqlarına hörmət və digər dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanır. Daha sonra, həmin Qanunun 4-cü maddəsində göstərilir ki, AR, onun vətəndaşı olan və onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan azərbaycanlıların hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir. Eyni zamanda, həmin maddəyə əsasən AR vətəndaşı olan və xaricdə yaşayan azərbaycanlılar AR ərazisində yaşayan AR vətəndaşları ilə bərabər hüquqlara malikdir və bərabər vəzifələr daşıyırlar.

**Dissertasiya işinin nəticə hissəsində** tədqiqatla əlaqədar əldə edilmiş mühüm təklif və nəticələr qeyd edilmiş, beynəlxalq və dövlətdaxili hüquq üçün onların nəzəri-praktik əhəmiyyəti ifadə edilmişdir.

**Dissertasiya tədqiqatı ilə əlaqədar müəllif tərəfindən aşağıdakı elmi əsərlər çap edilmişdir:**

1. Diplomatik müdafiə: nəzəri və praktik məsələlər. Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş Beynəlxalq elmi



konfransın materialları. Humanitar elmlər. Bakı, 2009, s. 283-285.

2. Müasir beynəlxalq hüquqda diplomatik müdafiə institutunun inkişaf istiqamətləri. «Heydər Əliyev və Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıq siyasətinin əsas inkişaf tendensiyaları» mövzusunda 06-07 may 2010-cu il tarixdə keçirilmiş elmi-praktik konfransın materialları. Bakı, 2010, s. 44-46.

3. Azərbaycan Respublikasında diplomatik müdafiə institutunun formalaşması və müasir vəziyyəti. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2013, №4 (36), s. 27-35.

4. Diplomatik müdafiə sferasında beynəlxalq hüquq normalarının milli qanunvericiliyin formalaşmasına təsiri. Beynəlxalq hüquq və inteqrasiya problemləri, 2014, №3 (39), s. 70-77.

5. Əcnəbilərin hüquqi statusu və diplomatik müdafiənin təqdim edilməsi. Nəqliyyat hüququ, 2014, №4, s. 219-227.

6. История и теоретические аспекты института дипломатической защиты. Право і суспільство, Киев (Украина), 2014, №6-2, с. 215-224.

7. Diplomatik müdafiənin anlayışı və beynəlxalq hüquq normalarında təsbit olunması. Naxçıvan Dövlət Universiteti, Elmi əsərlər. İctimai elmlər seriyası, 2014, № 9(65), s. 91-94.

8. Роль комиссии международного права в определении понятия дипломатической защиты. Матеріали V Міжнародної науково-практичної конференції - Юридична наука і практика: виклики часу. Київ, 2015, с. 200-204.

# РЕЗЮМЕ

Представленная Вафа Назим гызы Агаевой диссертация на соискание ученой степени доктора философии по праву по специальности 5603.1 – «Международное право; права человека» на тему «Дипломатическая защита в современном международном праве» является самостоятельным, творческим и завершенным исследовательским трудом и, отражая совершенно новые научные положения, имеет важное значение в области международно-национальных правовых проблем дипломатической защиты, защиты прав человека, в том числе, при широком анализе ряда связанных с гражданством актуальных вопросов. Диссертационная работа сформировалась на основе сравнительного анализа обширной международной договорной практики, законодательств различных государства, включая Азербайджанскую Республику и существующих в правовой литературе разногласий.

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, раскрываются степень ее разработанности, представленные к защите положения, цели и задачи исследования, ее теоретическое и практическое значение.

I глава диссертации называется «Формирование, суть, нормативно-правовые основы института дипломатической защиты и проблема ее применения» и состоит из 4 параграфов. Здесь широко анализируются исторический и теоретический аспекты института дипломатической защиты, ее суть и закрепление в международно-правовых нормах, условия применения дипломатической защиты, процессуальные этапы и средства ее применения.

II глава – «Основные элементы и особенности дипломатической защиты отдельных категорий лиц» - состоит из 5 параграфов. В главе такие актуальные вопросы, как правовой статус и дипломатическая защита иностранцев, дипломатическая защита лиц без гражданства, дипломатическая защита лиц с двойным и множественным гражданством, юридический статус и дипломатическая защита беженцев, особенности правовой защиты юридических лиц.

III глава называется «Проблема дипломатической защиты и тенденции развития национального законодательства Азербайджанской Республики» и состоит из 3 параграфов. Здесь исследуются вопросы формирования института дипломатической защиты в Азербайджанской Республике и ее современное состояние, влияния международных правовых норм на формирование национального законодательства в сфере дипломатической защиты, совершенствования и развития национального законодательства в области дипломатической защиты.

В заключении представлены полученные в ходе исследования важнейшие выводы и предложения, в том числе, раскрыто их теоретико-практическое значение для международной и внутригосударственной нормативной правовой системы.



# SUMMARY

Vafa Nazim Agayeva`s dissertation work presented for attaining the degree of PhD in the specialisation “5603.01- International law; human rights” called “Diplomatic protection in the contemporary international law” is independent, creative and completed work. Containing brand new provisions, the dissertation work is of paramount importance for analysis of international and national legal problems of diplomatic protection, current issues in the sphere of protection of human rights, including issues of nationality. The dissertation work is formed on the basis of comparative analysis of diverse points of views existing in the legal literature, on legislation of different countries including Azerbaijan, and on international treaties` experience regarding human rights and contains introduction, three chapters, conclusion and bibliography.

Topicality is substantiated in the introduction, the theoretical and practical importance of research, aims and goals, development rate, new approaches to the topic and novelty of the research work have been considered in the introduction.

The first chapter is called “Establishment, normative-legal basis and implementation problems diplomatic protection institution” and comprises 4 paragraphs. The first chapter deals with historical and theoretical aspects of diplomatic protection, its concept and determination in international-legal norms, conditions for implementation of diplomatic protection, procedural stages diplomatic protection`s implementation and its menas.

The second chapter of the dissertation work is called “The key elements of the diplomatic protection of a separate category of persons and its properties” and contains 5 paragraphs. This chapter is focused on legal status of foreigners and issues cocnerning their diplomatic protection, diplomatic protection of stateless persons, problems of providing people with dual or more nationalities with diplomatic protection, legal status of refugees and their diplomatic protection, current issues and characteristics of providing diplomatic protection to legal persons.

The third chapter of dissertation work named “Problem of diplomatic protection and development trends of national legislation of the Republic of Azerbaijan” contains 3 paragraphs, referring to establishment and current condition of diplomatic protection institution in the Republic of Azerbaijan, impact of international legal norms on formation of national legislation in the sphere of diplomatic protection, improvement and development tendencies of improvement and development of national legislation.

The conclusion part of the dissertation work is comprised of suggestions that are made and results that are achieved in the end of the dissertation work and especially dissertation work plays an important theoretical and practical role for the domestic and international legislative system.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**ВАФА НАЗИМ гызы АГАЕВА**

# ДИПЛОМАТИЧЕСКАЯ ЗАЩИТА В СОВРЕМЕННОМ МЕЖДУНАРОДНОМ ПРАВЕ

**Специальность: 5603.01-«Международное право; права человека»**

**А В Т О Р Е Ф Е Р А Т**

**диссертации на соискание ученой степени доктора философии по праву**

**БАКУ – 2015**